**Mirzə, M.** Qəhrəmancasına döyüşüb torpaqlarımızı azad edəcəyəm // Respublika. - 2025. - 30 iyul. - № 156. - S. 11.

Vətən müharibəsi şəhidi Daşqın Rzalı 1993-cü il mayın 27-də Culfa rayonunun Yaycı kəndində anadan olub. 2011-2012-ci illərdə həqiqi hərbi xidmətdə olub, 2017-ci ildən etibarən isə müddətdən artıq hərbi qulluqçu kimi ordu sıralarında xidmət etməyə başlayıb. Bir müddət Bakı şəhərində işləyib. İdmana həvəsi olduğu üçün cüdo ilə məşğul olub. 2017-ci il fevral ayının 17-si Dövlət Sərhəd Xidmətində işə başlayıb. Yevlaxda 6 ay kurs keçdikdən sonra Lənkəran şəhərində xidmətini davam etdirir. 2019-cu il aprel ayında Xızıda xidmətə başlayır. Həmin il avqust ayının 9-da ailə həyatı qurur.

2020-ci il iyun ayının 22-də Daşqın təlimlərə qatılır. Lakin 27 sentyabrda Vətənimizin bütövlüyü uğrunda gedən İkinci Qarabağ müharibəsi başlayanda təlimdən birbaşa müharibəyə gedir. Daşqın deyirdi: "Mən qəhrəmancasına döyüşüb, torpaqlarımızı azad edəcəyəm".

Daşqın dostlarına, tanışlarına hər zaman sadiq və mehriban idi. Hər zaman özündən əvvəl dostlarını fikirləşərdi. Bu xasiyyəti müharibədə də özünü göstərdi. Yaralı şəhid dostlarını çiynində daşıyırdı. Axı o, sədaqətli dost idi. Daşqın Rzalı xüsusi təyinatlı idi. Basqın zamanı erməni murdarları onları əsir götürmək üçün dörd bir yanlarını mühasirəyə almışdılar. Daşqın düşmənin bir çoxunu snayperlə, digər ikisini də əli ilə boğaraq öldürüb. Bunu görən ermənilər snayperlə Daşqını uzaqdan ürəyinə yaxın yerdən vurublar. Erməni maşınlarının onlara tərəf keçməsini görən Daşqın qışqıraraq: "Düşmən qoşunları bu istiqamətə keçir, qoruyun Azərbaycanı! " - deyərək dostlarını xəbərdar edir.

Azərbaycan Ordusunun kiçik giziri Daşqın Rzalı 2020-ci il 21 oktyabrda Zəngilan istiqamətində gedən döyüşlərdə şəhid olub.

Culfa rayon Yaycı kənd məzarlığında dəfn edilib.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etmiş, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərmiş, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Prezident İlham Əliyevin sərəncamlarına əsasən Rzalı Daşqın Elşad oğlu ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Qorxu duymadan, ürəklərində böyük Vətən sevgisi ilə qəhrəmancasına döyüşüb şəhid olan Daşqın kimi bütün şəhidlərimiz sübut etdilər ki, bu xalqın qəhrəmanları yüzlərlə, minlərlədir. Onların ömür yolu gənclərimizə nümunədir. İllər keçsə də, gələcək nəsillər onları hər zaman böyük minnətdarlıqla yad edəcəklər.